**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)**
**rektoru, professor Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim,**

Müstəqil respublikamızın aparıcı təhsil ocaqlarından biri olan Azərbaycan Dövlət İqtisad Universitetinin 90 illik yubileyi münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm, şəxsən Sizə və rəhbərlik etdiyiniz kollektivə möhkəm cansağlığı və uğurlar arzulayıram.

Sevindirici haldır ki, Azərbaycan Dövlət İqtisad Universitetində yetişdirilmiş yüksək bilik və bacarıqlara malik olan ixtisaslı mütəxəssislər müxtəlif vəzifələrdə fədakarlıqla çalışaraq dövlətimizin iqtisadi qüdrətinin daha da artmasına töhfə verməkdə davam edirlər.

Qürür hissi ilə bildirirəm ki, ailə ənənələrimizin davamçısı olaraq 2007-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu olmuşam və oxuduğum dövrdə aldığım təhsilin keyfiyyəti sayəsində İngiltərənin Kinqston Universitetində "Beynəlxalq Biznes İdarəetməsi" proqramı üzrə magistr dərəcəsinə yiyələnmişəm. Hal hazırda Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin Bakı Şəhəri Reklam İdarəsi rəisinin müavini vəzifəsində işləyirəm.

Bir daha Sizin rəhbərliyiniz altında Azərbaycan Dövlət İqtisad Universitetinə yeni nailiyyətlərə çatmağı və regionun ən yaxşı ali təhsil müəsissələri sırasında layiqli yerini qoruyub saxlamağı arzu edirəm.

**Dərin Hörmətlə,**
***Mehdi Qəzənfər oglu Ağayev***
**İdarə rəisi müavini**
**Azərbaycan Dövlət Reklam Agentliyi / Bakı Şəhəri Reklam İdarəsi**